**Yol həm mədəniyyətdir, həm rahatlıqdır, həm müasirlikdir, həm də ölkənin səviyyəsini göstərir.**

**İlham ƏLİYEV**

# AZƏRAVTOYOL AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# Rahat və təhlükəsiz yollar



"Azəravtoyol". Artıq bu ad çoxlarına tanışdır. Azərbaycanda yol infrastrukturunun təzələnməsində "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin rolu hədsiz böyükdür.

"Azərbaycan Respublikası regionlarının 2014-1018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində "Azəravtoyol" ASC-nin inşaatçıları gecə-gündüz bilmədən çalışır, Azərbaycanın inkişafına öz töhfələrini verirlər. Cari ilin əvvəlindən başlayaraq Qaraməryəm-İsmayıllı, Nohurqışlaq-Tültülyengicə, Tağıyev-Sahil, Masazır-Novxanı, Mingəçevir-Bəhrəmtəpə, Qovlar-Alakol-Ağacqala-Sarıtala, Zazalı-"İmamzadə" kompleksi-Gəncə və başqa avtomobil yollarını təmir edir və ya yenidən qururlar. ASC-nin kollektivi bütün bu işlərlə yanaşı, "Road & Trafik-2016" sərgisində fəal iştirak etmiş, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günlərində 100 mindən çox ağac və gül kolu əkmiş, Lerikdə yeni avtomobil körpüsü inşa etmiş, Bakının R.Rüstəmov, Telnov, Bəkir Çobanzadə, Sadıqcan küçələrində, Azadlıq prospektində, Qaradağ rayonunun Sahil qəsəbəsinin yollarında təmir işlərini keyfiyyətlə başa çatdırmışlar.

Bütün bu görülmüş işlər, ölkədə yollar şəbəkəsinin inkişafı, cari təmir və gələcək planlar barədə ölkə telekanallarının ekranlarında və efirdə qurumun mətbuat katibi Anar Nəcəflidən tez-tez eşidirik. Onun müsahibələri və xəbərləri də davamlı olaraq mətbuatda və elektron saytlarda işıq üzü görür. Bir anlığa düşünürəm: kaş ki bütün qurumların mətbuat xidməti rəhbərlərinin səsi belə eşidiləydi.

"Azəravtoyol" ASC aprel ayında isə Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax mənzilinin 115 kilometrlik hissəsini yenidənqurmadan sonra istifadəyə vermişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Ağsu rayonuna səfəri çərçivəsində həmin yolun açılışında iştirak etmişdir. Bu, əlbəttə, bölgə üçün çox mühüm hadisədir.

Vətəndaşların rahat gediş-gəlişinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tövsiyə və tapşırıqlarına əsasən "Azəravtoyol" ASC-nin inşaatçıları paytaxtın Heydər Əliyev prospektində "Böyük Şor" yol qovşağına doğru olan istiqamətdə əsas yoldan köməkçi yola keçid üçün nəzərdə tutulmuş xüsusi hissələrdə asfalt üzərinə işıqəksetdirici siqnal dirəkləri quraşdırmışlar. Bu dirəklərin quraşdırılmasında əsas məqsəd bəzi intizamsız sürücülərin köməkçi yoldan əsas yola çıxmasının qarşısını almaqdır. Bu həm də ilk növbədə ağır qəzalardan sığortalanmaq deməkdir.

- Azərbaycan Respublikası Prezidentinin etimadını ilk növbədə doğrultmalıyıq. Bu gün başlıca məqsədimiz, əsas amalımız budur! - deyə "Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov bizimlə söhbətə başlayır və bu gün, sabah görüləcək işlərdən danışır, gələcək planlardan söhbət açır: - Biz fəaliyyətimizdə ilk öncə keyfiyyətə üstünlük veririk. Yenidən qurulmasına təzə başladığımız Gəndob-Rusiya avtomobil yolunun tikintisində də bu meyarı əsas deviz kimi qəbul etmişik. Artıq Bakı-Quba-Rusiya Federasiyasının dövlət sərhədi avtomobil yolunun 133-142 kilometrlik hissəsinin (Gəndob-Rusiya sərhədi) yenidən qurulmasına start verilmişdir. Birinci texniki dərəcəli avtomobil yolunun uzunluğu 59,5 kilometr, hər istiqamət üzrə iki olmaqla hərəkət zolaqlarının sayı 4, ayırıcı zolağın eni 5 metr olacaq. Örtüyün tipinin asfalt betondan ibarət olması isə keyfiyyətdən xəbər verir.

Layihə üzrə yol yatağının eni 28, hərəkət zolaqlarının eni 3,75 metr nəzərdə tutulur. Hərəkət hissəsinin eni isə bir istiqamət üzrə 7,5, çiyinlərin eni 3,75 metr olacaq. Bu yolda sürət saatda 120 kilometr planlaşdırılır.

Həmin layihədə 23 ədəd olmaqla 4 ədəd müxtəlif səviyyəli böyük yolötürücü, 4 ədəd müxtəlif səviyyəli kiçik yolötürücü öz əksini tapmışdır. 15 ədəd körpünün beynəlxalq neft və qaz boruları üzərində yükötürücü olan 7 ədəd qurğu, kəndlərarası düzbucaqlı qurğu ilə 27 ədəd yol keçidi, 313 yerdə müxtəlif diametrlərdə suötürücü borular və digər dəmir-beton qurğularının tikintisi, elektrik, rabitə, su və qaz xətlərinin köçürülməsi nəzərdə tutulmuşdur.

"Yol mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir". Ümummilli lider Heydər Əliyevin bu sözləri qeyd-şərtsiz bizim devizimiz və fəaliyyət proqramımızdır. Həmin proqramı əldə rəhbər tutan kollektivimiz bir nəfər kimi öhdəlik qəbul etmişdir ki, Gəndob-Rusiya sərhədi avtomobil yolunu yüksək keyfiyyətlə və vaxtında təhvil verək. Əlbəttə, bu, Rusiya Federasiyası ilə Azərbaycan arasında xüsusilə iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsində müəyyən rol oynayacaqdır.

Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə uyğun olaraq, hazırda diqqət və fəaliyyətimizi əsasən regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəltmişik, - deyə S.Məmmədov söhbətinə yekun vurur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə bu günlərdə daha bir yolun - Xaçmaz rayonunda 18 yaşayış məntəqəsini birləşdirən Xudat-Yalama-Zuxuloba yolunun tikintisinə də başlanılmışdır. Xudat-Yalama-Zuxuloba yolu yaxın aylarda yüksək keyfiyyətlə istifadəyə veriləcək.

"Azəravtoyol" ASC-nin kollektivi Gəndob-Rusiya sərhədi avtomobil yolunun və planda olan digər avtomobil yollarının yenidən qurulmasının tikintisini və təmirini uğurla başa çatdırmaq üçün var qüvvəsini bacarıqla səfərbər edəcək, daha böyük nailiyyətlərə imza atacaq.

Yeri gəlmişkən qeyd etməliyəm ki, "Azəravtoyol" ASC-nin qarşısında daha mühüm vəzifələr qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təkcə bu ayın 13-ü və 14-də imzaladığı sərəncamlarla Bakı şəhəri Nizami rayonunun daxili avtomobil yollarında yenidənqurma işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Azəravtoyol" ASC-yə 5 milyon, Gədəbəy rayonunda 7 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Novosaratovka-Çobankənd-Novoivanovka yolunun tikintisinə isə 2,5 milyon manat ayırmışdır. Bu, daimi olaraq dövlət başçısının şəhər və kəndlərimizin yol infrastrukturunun inkişafına göstərdiyi diqqət və qayğının parlaq təzahürüdür. İnanırıq ki, "Azəravtoyol" ASC-nin kollektivi qarşıya qoyulmuş bu vəzifələrin də öhdəsindən layiqincə gələcək, yollarda insanlara daha da rahatlıq və təhlükəsiz həyat bəxş edəcək.







*Məhərrəm SƏFƏRLİ, "Azərbaycan"*